# "Hər rəngində mən varam"

## YAP Gənclər Birliyinin və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Dövlət Bayrağı Gününə həsr olunan bu adda sənədli filmin təqdimatı oldu

Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın Gənclər Birliyi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə 9 noyabr - Dövlət Bayrağı Gününə həsr edilmiş "Hər rəngində mən varam" adlı sənədli filmin təqdimatı keçirildi.








Öncə Dövlət bayrağına həsr olunmuş qısa videoçarx nümayiş olundu.

Sonra çıxış edən YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını təbrik etdi: "Bayraq bir dövlətin qürür mənbəyi, simvoludur. Biz hər hansı səfərə getdiyimiz zaman doğma Azərbaycanımızı özümüzlə apara bilmirik, yalnız bayrağımızı aparırıq. Hər hansı bir dövlətdə olanda biz bayrağımızı görəndə ürəyimiz dağa dönür. Bununla fəxr edirik. Bayrağımız bizim qürurumuzdur. Dövlətimiz də bayrağa hər zaman hörmət və sevgi ilə yanaşıb. Dövlətimizin başçısı andiçmə mərasimində bayrağımız qarşısında diz çökərək, onu öpərək ona sevgisini, rəğbətini ifadə edir. Əsgərlərimizi son mənzilə də uğrunda şəhid olduqları Azərbaycan bayrağını ilə yola salırıq."

S.Orucov gənclərimizi bundan sonra da bayrağımıza sevgi ilə yanaşmağa, onunla qürur duymağa çağırdı: "Bir insanda bayrağa sevgi başlayırsa, deməli, dövlətinə, xalqına, Prezidentinə sevgi yaranacaq. Bu gün dünyanın 150-yə yaxın dövlətində bayrağımız dalğalanır. Anım günləri, hansısa etiraz aksiyaları olanda azərbaycanlılar Avropa Parlamentində, BMT-nin, Ağ evin qarşısında Azərbaycanın bayrağını əllərinə alaraq ölkəmizi müdafiə edirlər. Bayrağımızla, onun simvolları ilə hər birimiz fəxr etməliyik və edirik."

YAP Gənclər Birliyinin fəalları Balacaxanım Hüseynova şair Ramiz Qusarçaylının "Azərbaycan bayrağı", Toğrul İsmayılzadə isə Xalq şairi Bəxtiyar Vahabzadənin "Bayraq" şeirini səsləndirdilər. Şeirlərdə bir daha bu çağırış olunurdu ki, bayrağımız qürurumuz, dəyərimizdir.

Sonda "Hər rəngində mən varam" adlı film təqdim olundu.

**Yeganə Əliyeva, Vüsal Cahanov (foto),** ***"İki sahil"***